# GƏNCLƏRIN TƏRBIYƏSINDƏ HEYDƏR ƏLIYEV IRSINDƏN ISTIFADƏNIN SƏMƏRƏLI TƏŞKILI SISTEMI

**Nərmin Həsənova**
*Naxçıvan Müəllimlər İnstitutu magistrant*
*Elmi rəhbər:Pedaqogika üzrə fəlsəfə doktoru,*
*dos.Qızıltac Tarverdi q.Şahbazova*
*nerminhesenova552@gmail.com*

## AN EFFECTIVE SYSTEM FOR ORGANIZING THE USE OF HEYDAR ALIYEV’S HER IT AGEIN THE EDUCATION OF YOUTH

**Narmin Hasanova**

**Summary**

The article talks about the exceptional role of the great leader Heydar Aliyev in organizing work on moral education. Since the moral values of the personality of the younger generation are a complex process as a whole, it covers the entire period of a person’s life. The study and research of the heritage of the national leader Heydar Aliyev attracts attention primarily from the point of view of relevance.

**Key words:** modern youth, moral development, education problems, global problems.

## GƏNCLƏRIN TƏRBIYƏSINDƏ HEYDƏR ƏLIYEV IRSINDƏN ISTIFADƏNIN SƏMƏRƏLI TƏŞKILI SISTEMI

**Nərmin Həsənova**

**Xülasə**

Məqalədə mənəvi tərbiyə işinin təşkilində ulu öndər Heydər Əliyevin müstəsna rolundan bəhs edilir.Gənc nəslin ümumən şəxsiyyətin mənəvi dəyərləri bütövlükdə mürəkkəb proses olduğundan o,insan həyatının bütün dövrünü əhatə edir. Ümummilli lider Heydər Əliyevin irsinin öyrənilməsi, tədqiq olunması ilk növbədə aktuallığı baxımından diqqəti cəlb edir.

**Açar söz:** müasir gənclik,mənəvi inkişaf, tərbiyə məsələləri, qlobal problemlər.

## ЭФФЕКТИВНАЯ СИСТЕМА ОРГАНИЗАЦИИ ИСПОЛЬЗОВАНИЯ НАСЛЕДИЯ ГЕЙДАРА АЛИЕВА В ВОСПИТАНИИ МОЛОДЕЖИ

**Нармин Гасанова**

**Аннотация**

В статье говорится об исключительной роли великого лидера Гейдара Алиева в организации работы по нравственному воспитанию.Поскольку нравственные ценности личности подрастающего поколения представляют собой сложный процесс в целом, он охватывает весь период жизни человека. Изучение и исследование наследия общенационального лидера Гейдара Алиева привлекает внимание прежде всего с точки зрения актуальности.

**Ключевые слова:** современная молодежь, нравственное развитие, проблемы воспитания, глобальные проблемы.

**Giriş.** Heydər Əliyev öz dövründə dövlət idarəetmə sisteminə,təhsil sahəsinə və tərbiyə sisteminə ciddi təsir göstərmişdir. Müasir Azərbaycan təhsil sisteminin keyfiyyətləşməsi və tərbiyənin inkişafına yönəlmişdir. Heydər Əliyev dövründə təhsil sistemi dövlət məsuliyyəti altında daha da güclənirdi.

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ən müstəqil,vətənpərvər və vətəndaşını sevən liderlərindən olmuşdur. O, Azərbaycanın prezidenti olaraq əsasən milli-mənəvi dəyərlərimizə olan yüksək qiymət və önəmə əsaslanmış bir siyasət sürdürmüşdür. Heydər Əliyev dövründə milli-mənəvi dəyərlərimiz və milli irsimiz qorunaraq,inkişaf etmişdir. O, milli ədəbiyyatımızı, tariximizi və mədəniyyətimizi dəstəkləyən bir çox layihələr həyata keçirmiş və milli irsimizin qorunmasına özünü həsr etmişdir. Heydər Əliyev dönəmi Azərbaycanın beynəlxalq arenada tanınmasına,milli mədəniyyətimizin təbliği və dəyərlərimizin dünyada daha geniş yayılmasına yardım etmişdir.

Ulu öndər Heydər Əliyevin titanik fəaliyyəti cəmiyyətin inkişafının bütün sahələrini, o cümlədən milli tərəqqinin əsasını təşkil edən təhsilin inkişafını əhatə edir.

Milli tərəqqidə, müstəqil dövlət quruculuğunda təhsilin,tərbiyənin əvəzsiz rolu olduğunu dəqiq müəyyənləşdirən Heydər Əliyevin zəngin yaradıcılıq irsi,şəxsi nümunəsi və dövlətçilik fəaliyyəti,siyasi görüşləri böyüyən gənc nəslin milli və ümumbəşəri dəyərlər zəminində tərbiyə olunması və təhsil alması işinin səmərəli təşkili üçün ən dəyərli mənbədir. Müstəqil Azərbaycan gənclərinin vətəndaşlıq, şəxsiyyət bütövlüyü və kamillik örnəyi olan bu mənbənin dərindən öyrənilməsi nəticəsində müstəqil,azad,dünyəvi,hüquqi-demokratik görüşlü müasir gəncliyimizin inamlı və inadlı mübarizəsinin şahidi olmaq mümkündür.Milli tərbiyə işininin məzmunu ilk növbədə gənclərin dövlətçilik, müstəqillik,azadlıq və onların qorunması uğrunda mübarizlik ruhunda tərbiyə olunmasından ibarətdir.

Dahi şəxsiyyət böyüyən nəslin hərtərəfli inkişafını ölkənin gələcəyi ilə, perspektivin müəyyən-ləşdirilməsi ilə əlaqələndirirdi. Gənc nəslin mənəvi-əxlaqı cəhətdən saflaşdırılması,milli dəyərlər vasitəsi ilə tərbiyə işi Heydər Əliyevin, necə deyərlər,tərbiyə doktirinasının əsasını təşkil edirdi.Ulu öndər bu istiqamətdə həyata keçirilməsi zəruri olan vasitələr sırasında gəncliyin ümumbəşəri dəyərləri mənimsəməklə müasir həyat tərzi yaşamasını da vacib hesab edirdi. Ümummilli liderin tərbiyəyə aid belə bir məzmuna və mahiyyətə malik fikirləri onun həyat və fəaliyyətinin ilk gənclik çağlarından tutmuş müdriklik dövrünə qədərki tərbiyə idealı idi. Dahi Heydər Əliyevin irsi bu tərbiyə idealının təcəssümüdür.

Ümummilli lider Heydər Əliyevin irsininin öyrənilməsi, tədqiq olunması ilk növbədə aktuallığı baxımından diqqəti cəlb edir.Ulu öndərimizin dövlətçilik fəaliyyəti,məruzə və çıxışları hər zaman böyüməkdə olan nəsillər üçün nümunə,örnək olacaqdır. Təhsilin pillə və səviyyəsindən asılı olmayaraq ümummilli lider Heydər Əliyevin irsində təhsilalanlar üçün zəngin bilik mənbələri mövcuddur. Ona görə də ulu öndərimizin irsinin müxtəlif aspektlərdən, o cümlədən pedaqoji aspektdən elmi tədqiqi təqdirəlayiq hesab edilir.Fikrimizcə, müasir gəncliyin tərbiyəsində Heydər Əliyev irsinin səmərəli təşkili problemi də bu baxımdan aktual səslənir. Ulu öndərin irsində vətən sevgisi, Azərbaycan sevgisi-azərbaycançılıq hissi,xalq,millət sevgisi,mədəniyyət sevgisi xüsusi yer tutur. Onun irsində sədaqətlilik, insanın-insana,insanın vətəninə,xalqına dövlətinə sədaqət hissi xüsusi yer tutur. Onun şəxsi nümunəsi və həyat təcrübəsi xalqına,ölkəsinə,dövlətinə əsl örnəkdir. Bu baxımdan Ulu öndərin zəngin irsinin gənc nəslə aşılanması çox vacibdir.

**ƏDƏBİYYAT:**


1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Renensans, 2000, 202 s.
2. Abbasov A., Məmmədli L., Əmirəliyeva İ. Pedaqogika nəzəriyyəsi və tarixi. Ali təhsil müəssisələri üçün dərslik. Bakı: Mütərcim. 2022, 464 səh.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1995.
4. Yeni Azərbaycan Partiyasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Xalq qəzeti" 24 noyabr 1998-ci il.
5. Yusifov M. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası (Heydər Əliyev məktəbinin dinləyiçiləri üçün vəsait). Bakı, "Nurlan", 2003, 204 səh.